**MALAHAT SAMADOVA**
**ADPU**
**malahat.samadova@yahoo.com**

# KÖK SÖZ YUVALARINDA SEMANTİK VƏ QRAMMATİK-FUNKSİONAL TƏKAMÜLÜN SÖZ YARADICILIĞI VƏ DERİVATİV MOTİVASİYA İLƏ ƏLAQƏSİ

**Açar sözlər:** flektiv dillər, düzəltmə sözlər, sözyaradıcı paradiqm, morfemlər
**Ключевые слова:** флуктуационные языки, производные слова, словообразовательное парадигма, морфемы
**Key words:** inflected languages, derivative words, word creating paradigm, morphemes

Müasir dilçilikdə söz yaradıcılığının və derivativ motivasiyanın struktur-semantik prinsiplər əsasında araşdırılması mühüm əhəmiyyət kəsb edir. Kök söz yuvalarında söz köklərinin və affikslərin qarşılıqlı münasibəti dil formalarının və mənalarının uyğunlaşması ilə müəyyənləşdirilir. Öz stabilliyi və sabitliyi ilə seçilən kök söz yuvası dil sistemi ilə birlikdə inkişaf edir.Kök söz yuvası daxilində sözyaradıcılığı və qrammatika qarşılıqlı təsir qüvvəsinə malik olur. Kök söz yuvaları dilin paradiqmatik və sistem qanunauyğunluqları əsasında inkişaf edərək dəyişir, şəbəkə yaradır. Müasir derivatologiyada əsas problemlərdən biri söz yaradıcılığının ümumi qanunauyğunluqlarının araşdırılmasıdır. Bu zaman söz yaradıcılığının vahidləri sistemli şəkildə araşdırılır. Kök söz yuvalarında söz yaradıcılığı prosesində yaranmış yeni vahidlərin araşdırılması, kök sözlər və derivatlar arasındakı münasibətlər, əsas nitq hissələri; isim, sifət və feil ilə ifadə olunmuş nüvə köklərin səciyyələndirilməsi adı çəkilən problemin aktuallığını bir daha sübut edir.

K.M.Musayev "Лексика тюркских языков в сравнительном освещении" ("Türk dillərinin müqayisəli leksikası") monoqrafiyasında yazır: "Türk dillərinin leksik tərkibinin zənginləşməsi məsələləri haqqında nəzəri tədqiqatlar lazımdır".(1,202)

Türk dillərinin leksikasının zənginləşməsi həm daxili imkanlardan, faktorlardan, vasitələrdən istifadə yolu ilə, həm də dünyanın başqa dillərindən sözalma hesabına baş verir.

L.A.Pokrovskaya "Термины родства в тюркских языках" ("Türk dillərində qohumluq terminləri") adlı monoqrafiyasında yazır: "Sözdüzəltmə və onun müxtəlif üsullarının (sintetik, analitik, fonetik, leksik) mahiyyətini aydınlaşdırmaq və alınmalara nəzəri və praktiki qiymət vermək onları daha

dərindən öyrənmək üçün geniş imkanlar açır. Dilin lüğət tərkibinin zənginləşməsinin əsasında dildə olan sözlərin semantik mənasının genişlənməsi, söz yaradıcılığı üsulları, başqa dillərdən tərcümə prosesi (kalkaetmə) və alınmalar durur"(2,11-81).

Dil sistemində sözyaradıcı amilləri bir neçə qrupa bölmək olar:

1. Dilin digər səviyyələri ilə – fonologiya, morfologiya, sintaksis ilə sıx əlaqələrlə;

2. Sistemin hərəkətliliyi, qeyri-sabitliyi ilə – məhz bu səbəbdən onun potensialları və reallaşma səviyyəsi arasında, söz yaradıcılığı və səs dəyişmələri arasında qəti sərhədi müəyyənləşdirmək mümkün deyildir.

3. Sinxroniya və diaxroniyanın vahidlərinin diferensiallaşması ilə.

4. Söz yaradıcılığı prosesində iştirak edən vahidlərin çoxluğu və rəngarəngliyi ilə.

Bu vahidlərə ən kiçik söz yaradan morfemlər – affiksdən tutmuş söz yaradan kateqoriyalara qədər çoxsaylı vahidlər daxil edilir. Sistemin bir çox nəzəri anlayışları – söz yaradıcılığının paradiqmləri, söz yaradıcılığının növləri də buraya daxildir. Söz yaradıcılığı prosesində iştirak edən formal vasitələrə görə söz yaradıcılığının bir neçə növü fərqləndirilir: affiksasiya, suffiksasiya və prefiksasiya ilə baş verən söz yaradıcılığı prosesi; iki eynihüquqlu vahidin iştirakı ilə baş verən söz yaradıcılığı prosesi; konversiya – sözlərin bir nitq hissəsindən digərinə keçməsi və translyasiyası avreviasiya – qısaldılmış sözlərin iştirakı.

Amerika dilçisi E.Sepir müasir dilçilikdə pilləli tipologiyanın banisi sayılır. Onun fikrinə görə, dillərin tipoloji təsnifi bir əlamətə görə deyil, müxtəlif əlamətlərə əsasən aparılmalıdır. E.Sepir tipoloji təsnifat zamanı aşağıdakı prinsipləri əsas göstərir: dildə əşya, əlamət, hərəkət və s. kimi müxtəlif anlayışların ifadəsi; sintezin dərəcəsi; dilin texnikası.

Sintezin dərəcəsinə görə dillər analitik, sintetik və polisintetik dillərə ayrılır. Dillərin texnikası dedikdə isə izolyasiya, aqqlüsinasiya, fuziya və stimullaşma nəzərdə tutulur. Türk dilləri sintetik dillərə aiddir. Söz və morfem sahələrinin açıq olması türk dillərini analitik dillərə yaxınlaşdırır. Bu dillərdə həm də polisintetikliyin müəyyən, əlamətləri özünü göstərir. Türk dillərinin texniki göstəricisi aqqlüsinasiyadır. Lakin bu dillərdə həm kök dillərə xas olan izolyasiya, həm də flektiv dillər səciyyələndirən fuziya müşahidə olunur. Müstəqilliyini itirən söz də həmin fuziya hadisəsi ilə bağlıdır. Bunun da Azərbaycan dilində müxtəlif şəkillərini fərqləndirmək olar.(3,45-47)

Təkhecalılıqdan çoxhecalılığa inkişaf zamanı söz müstəqilliyini itirir və daha mürəkkəb forma ilə ifadə olunur. Azərbaycan dilindəki "bağlamaq" feili qədim "ba"- kökündən yaranmışdır (ba+ğ+la+maq). Bəzən kökü öz müqayisəliyini itirsə də törəmə sözlərin tərkibində işlənir.

Azərbaycan dilindəki “uzun”, “uzan”, “uzat” sözləri qədim “üz” kökündən törəmişdir. Nağıllarımızda işlənən “az getdi, üz getdi, dərə-təpə düz getdi” ifadəsindəki “üz” leksemi həmin köklə bağlıdır. Azərbaycan dilində elə sözlər mövcuddur ki, morfoloji müəyyənliyə malik olur onu formal olaraq tərkib hissələrinə ayıra bilərik. Kök müstəqilliyini itirir – söz sadələşir, lakin başqa bir derivativlə kökün mənası bərpa olunur. Məsələn, “yaşmaq” müasir Azərbaycan dilində sadə sözdür. “Yaşınmaq” feilinə əsasən eyni mənalı “yaş(maq) feilini ayırmaq olar. Müasir Azərbaycan dilində müstəqilliyini itirmiş köklərin lüğət fondu əsasında mənalarını bərpa etmək mümkündür.“Doğru” sadə sifətinin nüvəsini təşkil edən kökün (“doğ”) mənasını onun antoniminə əsasən (“əyri”) müəyyən bərpa etmək olar. Azərbaycan dilində müstəqilliyini itirən köklərin mənasını eyni kök söz yuvasına daxil olan fonomorfoloji variantlar vasitəsilə bərpa etmək mümkündür. Məsələn: “devirmək”, “çevirmək”) leksemlərinin kökü öz müstəqilliyini itirsə də, eyni kök söz yuvasından olan “dönmək”, “sönmək”, “döndərmək” leksemlərinə əsasən ilkin kökləri bərpa etmək mümkündür.

Dildə kök söz yuvaları sisteminin əsas vahidi düzəltmə söz hesab edilir. Bu baxımdan söz yaradıcılığı prosesinin son nəticəsi düzəltmə söz hesab olunur. Çünki söz yaradıcılığı prosesi məhz yeni sözlərin yaranması üçün mövcud olur.Kök söz yuvalarının vahidləri arasında söz yaradıcıları prosesi həm ardıcıl, həm də birgə formada gedir. Bu əlaqələri radial münasibətlər də adlandırmaq olar. Burada bir sözyaradıcı kökdən və ya əsasdan bir neçə sözdüzəltmə söz yaranır. Eyni əsas və ya kökdən və söz yaradıcılığı prosesinin eyni pilləsində yaranmış bu iyerarxik strukturları sözyaradıcı paradiqm adlandırmaq olar. Bu proses hal və ya təsriflənmədə söz yaradıcılığı formalarına bənzəyir. Bu formalar qrammatikada morfoloji paradiqm adlanır. Eyni mahiyyət və özəlliklərlə yaranmış sözyaradıcı paradiqmlər də morfoloji paradiqmlərə bənzəyir.(4,98-104)

Kök söz yuvaları həqiqətən dil universalisi sayıla bilər, çünki onlar bütün dillərə xasdır və müxtəlif tipologiyaya məxsus dil sistemlərinin səciyyəvi xüsusiyyətidir. Dil resurslarının təşkili və bölgüsü problemi linqvistik struktur və onun təkamülü baxımından çox vacibdir.(5,20-24)

Türk dillərində eyni sözün formalarının birləşdirən morfoloji paradiqmlərdən fərqli olaraq, sözyaradıcı paradiqmlər müxtəlif sözləri, o cümlədən fərqli nitq hissələrinə aid olan leksemləri birləşdirir. Qədim türk dilində “acı” sifətinin kök söz yuvasına “acı”, “acılı”, “qcıla”, “acırsa”. “acırsı”, “acısız” komponentləri daxildir. “Ac” sifətinin kök söz yuvasına “ac”, “acın”, “acıq”, “aclıq”, “acmaq”, acsiq” komponentləri daxildir.(6, 24-27) L.V.Şerba “Фонетика французского языка” (“Fransız dilinin fonetikası”) əsərində yazır: “Söz yaradıcılığı düzəltmə və mürəkkəb sözləri dinamik və statik aspektlərdə öyrənir”. Yəni dinamik dedikdə problem “Söz

necə yaranır?"; statik dedikdə "söz necə yaradılıb" şəklində qoyulur. "Söz yaradıcılığı sözün diaxronik və sinxronik yaradılma qaydalarını ehtiva edir".(7, 48-56)

Lakin dilçilikdə belə bir fikir də mövcuddur ki, söz yaradıcılığı hər zaman diaxronik vəziyyətdədir. Bu fikir əsasən rus dilçisi O.N.Trubaçeva məxsusdur. O.N.Trubaçev yazır: "Sinxroniya donmuş diaxroniyadır". Faktiki material dilin inkişafının müəyyən mərhələsində söz yaradıcılığı, yeni sözlərin yaranması və bu yaranma barədə məlumatlar verə bilər və bu sözlərin yaranması üçün yeni qaydalar yarada bilər. Bu qaydalar əsasında isə dildən istifadə edənlər sinxronik planda yeni düzəltmə və mürəkkəb sözlər yarada bilər".(8,54-59)

## Ədəbiyyat

1.Мусаев К.М
Лексика тюркских языков в сравнительном освещение (западно кыпчакская группа). М., «Наука», 1975, с.202
2. Покровская Л.А.
Термины родства в тюркских языков. Историческое развитие лексики
тюркских языков. «Наука». 1961, с.11-81
3. Мирза Казим-бек
Общая грамматика турецко-татарского языка. Казан, 1846. с.45-47
4. Комлев Н.Г.
Компоненты содержательной структуры слова. М, 1980.с.98-104
5. Комлев Н.Г. Компоненты содержательной структуры слова. М,1980,20-24
6. Гузев В.Г. Очерки по истории тюркского словоизменения. Л,1987.с.12-18 7. Древнетюркский словарь. Ленинград, Наука,1969, с.24-27
8. Щерба Л.В. Фонетика французского языка. М,1963, с.48-56

**M.Samadova**

## Semantic and grammatical-functional evolution in root word slots with the word creativity and derivative motivation

## Summary

Morphology and word creativity in root words slots are analyzed as a single object. This method is characterized by the grammatical centralization

of the language. Each newly created word is included in the hierarchy of categories. In this hierarchy, the main place is occupied by a general categorial meaning. This time, word creation problems are investigated on the basis of the speech parts division principles.

New words are analyzed on basis of morphological principles and word creativity processes are identified by the semantic-functional regularities of this or that part of the speech. The comparison of the root words of this semantic group shows that there are some similarities of their derivation meanings.

This is due to the fact that in word creativity, the same meaning can be formed with different means of expression.

**М.Самадова**

**Связь семантической и грамматически-функциональной эволюции в словообразовательных гнездах со словотворчеством и деривативной мотивацией**

**Резюме**

Морфология и словотворчество в словообразовательных гнездах анализируются как единый объект. Этот метод характеризуется особенностью грамматической централизации языка. Каждое вновь созданное слово включено в иерархию категорий. В этой иерархии основное место занимает общее категориальное значение. На этом этапе проблемы создания слов исследуются на основе принципов разделения частей речи.

Новые слова анализируются на основе морфологических принципов, а процессы создания слов определяются семантически-функциональной закономерностью той или иной части речи. Сравнение словообразовательных гнезд одной семантической группы показывает, что у них некоторые деривационные значения аналогичны.

Это связано с тем, что в словотворчестве одно и то же значение можно сформулировать с помощью различных средств выражения.

**Rəyçi: Zemfira Əliyeva**
**Filologiya elmləri doktoru**